# "COP29-da məqsədlərimizə nail ola bildik"

**"Mən Azərbaycana Nigeriyadan gəlmişəm. COP29-da maraqlı söhbət və müzakirələr oldu. Burada mən indiyə qədər çox şey öyrəndim və iqlim müdafiəsi ilə bağlı bir çox yüksək intellektli şəxslərlə əlaqələr qurdum".**



Bu barədə AZƏRTAC-a açıqlamasında COP29-un nigeriyalı iştirakçısı, Birləşmiş Millətlər Təşkilatının Təlim və Tədqiqat İnstitutunun (UNITAR) "Prince Uwagboe" Fondunun rəhbəri Osawemwenhio Uwagboe deyib.

"Bu mənim iştirak etdiyim sayca ikinci COP-dur. Dubayda keçirilən COP28-də də iştirak etmişəm. Gələn il Braziliyada keçiriləcək COP30-da da iştirak etməyi düşünürəm. COP29-da məqsədlərimizə nail ola bildik, çünki biz buraya kifayət qədər çox geniş proqramla gəlmişik. Qarşıdakı günləri səbirsizliklə gözləyirik. Mən Azərbaycanda keçirilən builki COP29 təşkilatçılarını çox yüksək qiymətləndirirəm. Bakı olduqca gözəl şəhərdir. Mən heç vaxt burada olmamışdım. Bakı haqqında çox şey bilmirdim və bura bir xəzinəyə bənzəyir. Bu gözəl şəhərə yenidən gəlmək istərdim", - deyə Osawemwenhio Uwagboe əlavə edib.

Azərbaycan.- 2024.- 21 noyabr (№ 256).- S.10.